8/V

Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına

Masallı şəhəri H.Səmədov küçəsi, ev-58 ünvanında yaşayan Xəlilova Aytən Aləddin qızı tərəfindən

Ə R İ Z Ə

Ərim Şamil Niftiyev uşaqlarımın saxlanılmasına köməklik etmədiyindən ona qarşı aliment tələbi ilə məhkəməyə müraciət etmək məcburiyyətində qaldım. Masallı Rayon Məhkəməsi alimentə dair qətnamə çıxartsa da, Şamil Niftiyev Rusiya Federasiyasında yaşayıb işlədiyindən həmin qətnamə tanınaraq icra olunması üçün Rusiya Federasiyasına göndərildi. Qətnamənin tanınaraq icra olunmasına mane olmaq üçün isə cavabdeh və ailə üzvləri mənə qaşı hər cür təzyiqlər etdilər. Ən pisi isə İcra Hakimiyyəti vasitəsi ilə uşaqlarımı qanunsuz olaraq Uşaq Evinə yerləşdirdilər. Uzun sürət məhkəmə proseslərindən sonra nəhayət ki, mənə qarşı olan bütün haqsızlıqlar aradan qaldırıldı, barəmdə inzibati xəta ilə bağlı qanunsuz qərar məhkəmə tərəfindən ləğv edildi, valideynlik hüquqlarından məhrum edilməyim barədə iddia məhkəmə tərəfindən rədd edildi və mən nəhayət uşaqlarıma qovuşa bildim. Bu işlərdə mənə təmənnasız dəsdək olan vəkil Nicat İslamova, ədalətli qərarlar qəbul etmiş Masallı məhkəməsinin hakimləri Habil Bəhmənova və Zeynal Zeynalova öz təşəkkürümü bildirirəm. Vəkil Masallı ASAN Xidmət mərkəzində aztəminatlı şəxslərlə bağlı ödənişsiz layihənin Vəkillər Kollegiyasının təşkil etməsini bildirdi. Buna görə Sizlərə öz təşəkkürümü bildirirəm.

İmza:

Xəlilova Aytən Aləddin qızı
24 may 2024-cü il

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 1836
«29» 05 2024